# Tələbə adını qazanmış məzunlarla görüş

***Qəbələ Rayon İcra Hakimiyyəti 2018-2019-cu dərs ilində rayonun tam orta məktəblərini bitirib ali məktəblərə qəbul olmuş tələbələrlə görüş keçirmişdir.***

Görüşü giriş sözü ilə rayon icra hakimiyyəti başçısının müavini Ətayə Osmanova açmışdır.

Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev ali məktəblərə qəbul olunmuş gəncləri təbrik etmiş, onlara təhsildə və gələcək həyatlarında müvəffəqiyyət arzulamışdır. Başçı çıxışında bildirmişdir ki, ölkəmizin sürətli inkişafında yeni zirvələrin fəth edilməsi yüksək intelektli, bacarıqlı kadrlardan asılıdır. Ona görə də ali məktəblərə qəbul olunmuş gənclər biliklərə daha səylə yiyələnməli, öz ixtisaslarının əsil bilicisi olmalıdırlar.

RİH başçısı qeyd etmişdir ki, ölkə Prezidenti cənab İlham Əliyevin diqqət və qayğısı sayəsində respublikamızda, o cümlədən rayonumuzda təhsilin ən müasir səviyyəyə qaldırılması üçün hər cür şərait yaradılmışdır və proses ardıcıl olaraq davam edir.



Rayon təhsil şöbəsinin müdiri Arifə Bayramova, gənclər və idman idarəsinin rəisi Fəxri Soltanov, Tüntül kənd tam orta məktəbinin direktoru Telman Abduxalıqov tələbə adını qazanmış keçmiş məzunları təbrik etmiş, onlara təhsildə, həyatda uğurlar arzulamışlar.

Bu il ali məktəblərə qəbul olunmuş tələbələr adından qəbul imtahanlarında rayon üzrə ən yüksək bal toplamış, BDU-nun hüquq fakultəsinə qəbul olunmuş, tam orta məktəbi qızıl medalla başa vurmuş Qəbələ şəhər 4 nömrəli tam orta məktəbin məzunu Səfərəliyeva Jalə Müşfiq qızı və Mıxlıqovaq kənd tam orta məktəbini qızıl medalla bitirərək ADİU-nun tələbəsi adını qazanmış İsmayılov Röyal İlqar oğlu çıxış edərək onlara yüksək təhsil almaq üçün hər cür şərait yaradıldığına görə ölkə başçısı cənab İlham Əliyevə, rayon rəhbərliyinə, elm pillələrində yüksəlməyi səbrlə öyrədən müəllimlərinə minnətdarlıqlarını bildirmişlər.



Yeni tələbə adını qazanmış gənclərdən bir qrupuna rayon icra hakimiyyətinin və rayon təhsil şöbəsinin fəxri fərmanları təqdim olunmuşdur.

Sonda xatirə şəkli çəkdirilmişdir.

**«Qəbələ»**
**İlkin Vəlizadə (foto).**

# Meksikalı pianoçu Xesus Lepe Qəbələ musiqisevərlərinin qonağı olub

***Azərbaycanda səfərdə olan tanınmış meksikalı pianoçu Xesus Lepe respublikamızın regionlarına səfər proqramı çərçivəsində sentyabrın 6-da Qəbələ musiqisevərlərinin qonağı olub.***



Qəbələ Mədəniyyət Mərkəzində təşkil edilən konsertin əvvəlində rayon icra hakimiyyəti başçısının müavini Ətayə Osmanova çıxış edərək, Qəbələdə beynəlxalq tədbirlərin, musiqi festivallarının keçirilməsinin artıq ənənə halını aldığını vurğulayıb, bölgələrdə ilk konsertin bu şəhərdə təşkilinə görə Meksikanın ölkəmizdəki səfirliyinin rəhbərliyinə musiqisevərlər adından minnətdarlığını bildirib.

Meksikanın Azərbaycandakı səfiri Xuan Rodriqo Labardini çıxış edərək, səfirliyin təşkilatçılığı ilə reallaşan silsilə konsertlərin musiqinin dili vasitəsilə iki xalqın yaxınlaşmasına töhfə vermək məqsədi daşıdığını söyləyib. Bildirilib ki, Meksikanın Azərbaycandakı səfirliyi ölkələrimiz arasında dostluq və mədəniyyət sahəsində əlaqələri genişləndirmək məqsədilə davamlı olaraq layihələr həyata keçirir. Səfir bildirib ki, bu, Qəbələnin Meksika mədəniyyəti ilə ilk tanışlığı, görüşü deyil. 2016-cı ildə meksikalı rəssam Marqarita Moralesin Qəbələdə sərgisi təşkil edilib. Bir il sonra Qəbələ sakinləri Meksikanın ənənəvi mətbəxinin bəzi təamlarının dadına baxmaq imkanı əldə ediblər. Diqqətə çatdırılıb ki, Qəbələdən əvvəl pianoçu Xesus Lepe Bakıda, Beynəlxalq Muğam Mərkəzində musiqisevərlərin qarşısında çıxış edib. Pianoçunun növbəti konserti sentyabrın 11-də Sumqayıt şəhərində olacaq. Konsertdə dünya şöhrətli bəstəkarlar Bax, Bethoven və Şopenin, həmçinin Meksikanın klassik musiqi ifaçılarından Xesus Belisario və Rikardo Kastronun əsərləri səsləndirilib. Pianoçunun ifası tamaşaçılar tərəfindən alqışlarla qarşılanıb.

**Zahir KƏRİMOV,**
**İlkin Vəlizadə (foto).**

# "Azərişıq" ASC-nin rəhbərliyi şimal-qərb bölgəsindən olan vətəndaşların müraciətlərini dinləyib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına və mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin 2019-cu ilin sentyabrında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, "Azərişıq" ASC sədrinin vəzifəsini icra edən Vüqar Əhmədov sentyabrın 5-də Qəbələ şəhərində, Qəbələ və İsmayıllı rayonlarından olan vətəndaşların müraciətlərini dinləyib.

Müraciətləri əsas hissəsi yerindəcə həllini tapıb. "Azərişıq" ASC-nin rəhbərliyi bütün məsələlərin qanunvericiliyə uyğun və operativ şəkildə həll edilməsi üçün cəmiyyətin əlaqədar struktur qurumlarının rəhbərlərinə və rayon elektrik şəbəkələrinin rəislərinə müvafiq göstərişlər verib.

Araşdırılma tələb edən müraciətlər nəzarətə götürülüb və operativ həlli üçün icraya yönəldilib.

Vətəndaşlar bölgə sakinlərinin yerindəcə qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını bildirərək, göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını ifadə ediblər.

# Təlim keçirilmişdir

Ailə, Qadın və Uşaq Problemləri Üzrə Dövlət Komitəsi Almaniya Beynəlxalq Əməkdaşlıq Təşkilatı ilə birlikdə 2012-ci ildən başlayaraq qadınların ictimai həyatda iştirakını gücləndirmək və Azərbaycanda yerli səviyyədə daha çox gender yönümlü idarəetməni təmin etmək məqsədilə "Dayaq Mentorluq proqramı" həyata keçirir. Layihənin davamı olaraq Ailə, Qadın və Uşaq Problemləri Üzrə Dövlət Komitəsi Qəbələ şəhərindəki Heydər Əliyev Mərkəzində təlim xarakterli tədbir keçirmişdir.

Tədbirdə Qəbələ və Oğuz rayon icra hakimiyyəti başçılarının qadın müavinləri, ictimai-siyasi və hümanitar, sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbələrinin əməkdaşları iştirak etmişlər.

"Gender və liderlik təlimləri" adlanan tədbirdə Respublika Ailə, Qadın və Uşaq Problemləri Üzrə Dövlət Komitəsinin əməkdaşları Aynur Veysəlova və Aytəkin Hacıyeva mövzu ilə əlaqədar mülahizələrini iştirakçılarla bölüşmüşlər. Tədbirdə ölkəmizdə gender siyasəti sahəsində həyata keçirilən proqramlar barədə ətraflı məlumat verilmiş, qadınların ictimai həyatda rolunu daha da gücləndirmək yolları müzakirə olunmuşdur.



Tədbir dialoq şəklində keçirilmişdir.

**«Qəbələ»**
**Səhrab Umuyev (foto).**

# Yay təcrübəsi səmərəli olub

Qəbələ Dövlət Peşə Təhsil Mərkəzinin 1-ci kurs tələbələrinin yay təcrübə məşğələləri başa çatıb.

Xəbər verdiyimiz kimi "Qəbələ rayonunda kənd təsərrüfatı və turizm sahəsində duala bənzər peşə təhsili və təlimi pilotunun yaradılması" layihəsi çərçivəsində peşə təhsil mərkəzinin 1-ci kurs tələbələri yay təcrübəsində iştirak ediblər. Mərkəzin aqroservis və bitkiçilik mütəxəssisi ixtisaslarının tələbələri "Gilan Dairy Forms" MMC-də, "Gilan Qəbələ Aqroservis" MMC-də, "Şamlı" Aqroservis Müəssisəsində, "Gilan Vegetables MMC-də, "Daşca" kiçik fermer təsərrüfatında təcrübə keçiblər.

Təcrübəyə qatılan tələbələr mühəndis-pedoqoji heyətin eləcə də müəssisə tərəfindən təyin olunmuş mütəxəssislərin müşayətilə iş prosesində yaxından iştirak edib, istifadə olunan maşın və avadanlıqların iş prinsiplərini öyrənib, həmçinin peşəkar mütəxəsislərlə birlikdə çalışaraq onların təcrübələrindən faydalanıblar.

**"Qəbələ"**